## Riyaziyyat

1. 0,3($a$) ədədi ixtisar olunmayan kəsr olarsa, $a$-nın qiymətlərinin cəmini tapın ($a$ - rəqəmdir).
A) 10 B) 9 C) 6 D) 8 E) 4

2. $\frac{a-b}{a+b} = \frac{1}{5}$ olarsa, $a$ ədədi $b$ ədədinin neçə faizidir?
A) 40 B) 80 C) 120 D) 150 E) 200

3. $\begin{cases} x+y=9 \\ y+z=15 \\ x+z=12 \end{cases}$ tənliklər sistemindən $x+y+z$ cəmini tapın.
A) 10 B) 14 C) 15 D) 18 E) 16

4. $f(x) = 3x^2 + 1$ funksiyasının qrafiki $A(0;5)$ nöqtəsindən keçən $F(x)$ ibtidai funksiyası üçün $F(2)$-ni tapın.
A) $-10$ B) $-5$ C) $10$
D) $15$ E) $25$

5. Uyğun tərəfləri paralel olan bucaqlardan biri digərindən $36^0$ böyük olarsa, kiçik bucağı tapın.
A) $38^0$ B) $68^0$ C) $44^0$
D) $72^0$ E) $56^0$

6. Bərabəryanlı trapesiyanın daxilinə radiusu 6 sm olan çevrə çəkilmişdir. Trapesiyanın kiçik oturacağı 6 sm olarsa, onun orta xəttini tapın.
A) 15 sm B) $16\frac{2}{3}$ sm C) $14\frac{1}{3}$ sm
D) 16 sm E) 18 sm

7. $\begin{cases} x^2 - 10x + 16 > 0 \\ x - 10 < 0 \end{cases}$ bərabərsizliklər sistemini həll edin.
A) $(2;10) \cup (8;+\infty)$ B) $(-\infty;2) \cup (8;10)$
C) $(-\infty;10)$ D) $(8;+\infty)$
E) $(2;8)$

8. Çevrənin diametrinə perpendikulyar olan vətər diametri 9 sm və 4 sm-lik hissələrə ayırır. Vətərin uzunluğunu tapın.
A) 12 sm B) 14 sm C) 16 sm
D) 8 sm E) 10 sm

9. $\vec{a}(4;2;-1)$ $və$ $\vec{b}(1;3;10)$ vektorları arasındakı bucağı tapın.
A) $60^0$ B) $90^0$ C) $30^0$ D) $120^0$ E) $150^0$

10. $x^2 - 6x + 7 = 0$ tənliyinin kökləri $a$ və $b$ olarsa, $a^2 - a(b+6)$ ifadəsinin qiymətini tapın.
A) 13 B) -1 C)-14 D) 0 E) 1

11. $|a^2 - 16| + |b^3 + 8| + |c^4 - 16| = 0$ olarsa, $abc$ hasilinin böyük qiymətini tapın.
A) -12 B)-16 C) 18 D) 12 E) 16

12. Oturacağının diametri $6\sqrt{2}$, ox kəsiyinin sahəsi 36 olan konusun həcmini tapın.
A) $72\sqrt{2}\pi$ B) $36\sqrt{2}\pi$ C) $18\sqrt{2}\pi$
D) $24\sqrt{2}\pi$ E) $48\sqrt{2}\pi$

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

13. $9^{x-3} - 12 \cdot 3^{x-3} + 27 = 0$ tənliyinin kökləri hasilini tapın.
A) 8 B) 12 C) 18 D) 24 E) 20

14. $f(x) = (2x+3)^3$ funksiyası üçün $f'(-1)$-i hesablayın.
A) 3 B) 1 C) 6 D) 4 E) 2

15. *AB* və *CD* düz xətt parçaları *E* nöqtəsində kəsişir.
$CB \parallel EF$, $EF \parallel AD$ və $AD = 4, BF = 6, DF = 4$ olarsa, *BC*-ni tapın.




A) 6 B) 8 C) 9 D) 7 E) 5

16. $\frac{3-i}{2+i}$ kompleks ədədinin həqiqi hissəsini tapın.
A) 1 B) 2 C) 0,5 D) 0,4 E) 0,3

17. Sadələşdirin: $\sqrt{(lg5-2)^2} + \sqrt{(lg20-3)^2}$
A) 1 B) 2 C) 3 D) 4 E) 5

18. $f(x) = \sqrt{x^2 + 10x + 34}$ funksiyasının qiymətlər çoxluğuna daxil olan ən kiçik ədədi tapın.
A) 4 B) 3 C) 2 D) 1 E) 0

19. $2x^2 + 3x - 5$ coxhədlisinin vuruqlarindan biri aşağıdakılardan hansıdır?
A) $x - 1$ B) $x - 2$ C) $2x - 1$
D) $3x - 1$ E) $3x + 1$

20. Üçbucağın iti bucağının sinusu $\frac{5}{13}$ və bu bucağa bitişik tərəfləri 16 sm, 13 sm-dir.Üçüncü tərəfi tapın.
A) $5\sqrt{3}$ B) $\sqrt{39}$ C) $4\sqrt{3}$ D) $\sqrt{41}$ E) $6\sqrt{2}$

21. $3sin3x = \sqrt{3}cos3x$ tənliyini həll edin.
A) $\frac{\pi}{12} + \frac{\pi k}{3}, k \epsilon Z$
B) $\frac{\pi}{18} + \frac{\pi k}{3}, k \epsilon Z$
C) $\frac{\pi}{9} + \pi k, k \epsilon Z$
D) $\frac{\pi}{15} + 2\pi k, k \epsilon Z$
E) $\frac{\pi}{12} + \pi k, k \epsilon Z$

22. $ƏBOB(n^3 + 64;\ n^2 - 4n + 16) = 4n + 1$ olarsa, $ƏKOB(n+3; n+1)$-in ən böyük qiymətini tapın.
A) 12 B) 24 C) 36 D) 48 E) 60

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam1

**Açıq tipli test tapşırıqları:**

23. Hesablayın: $\lim\limits_{x\to 0}\dfrac{\cos 6x-\cos 2x}{\sin 2x}$

24. *ABCDEF* düzgün altıbucaqlısında $(\alpha+\beta)$ cəmi neçə dərəcədir?




25. Tili 12 sm olan kubun diaqonallarının kəsişmə nöqtəsindən onun üzlərinə qədər məsafələrin cəmini tapın.

26. Kəsişməsi boş olmayan $A$ və $B$ coxluqları üçün $n(A\backslash B)=2x+1,\ \ n(B\backslash A)=3y-4,$ $n(A\cap B)=x-3$ olarsa, $n(A\cup B)$-nin ən kiçik qiymətini tapın. ( $x,y\ \in\ N$)

27. $(a_n)$ ədədi silsiləsi üçün uyğunluğu müəyyən edin.
1. $a_2=5; a_6=19$
2. $a_4=-6;\ a_6=-1$
3. $a_5=12;\ a_9=20$

a. $a_2=-11$
b. $a_7=16$
c. $d=3{,}5$
d. $S_7=84$
e. $d=2{,}5$

## Situasiya

Süd emal edən bir zavod gün ərzində ümumi həcmi 540 litr olan 50 bidonluq süd sifarişi almışdır. Zavodun satdığı süd bidonları 10 litrlik və 12 litrlikdir. Bir bidon südün satış qiyməti, uyğun olaraq, 15,5 manat və 17,5 manatdır.

28. Gün ərzində hər növ bidondan neçə ədəd sifariş edildiyini tapın.

29. Gün ərzində zavodun neçə manatlıq satış etdiyini hesablayın.

30. Sifariş olunan 50 bidondan təsadüfi seçilmiş iki bidonun ikisinin də eyni həcmli bidon olması hadisəsinin ehtimalını tapın.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam1

## Coğrafiya

31. Exolot cihazı dənizin dibinə göndərdiyi səs siqnalını 14 saniyədən sonra qəbul etmişdir. Gəminin hansı dənizdə ola biləcəyini müəyyən edin.
A) Aralıq B) Karib C) Filippin
D) Qrenlandiya E) Qırmızı

32. Platforma sahəsində yerləşən göllər:
A) Xəzər, Baykal, Van
B) Cenevrə, Qarda, Balaton
C) Aral, Göygöl, Sarısu
D) Eyr, Ladoqa, Çad
E) Titikaka, Miçiqan, Viktoriya

33. "Yaşıl inqilab"ın mahiyyətini ifadə edən variantı müəyyən edin.
A) İEÖ- lərdə meşə zolaqlarının salınması və ekologiyanın qorunması
B) Əmtəəlik təsərrüfatdan natural təsərrüfata keçid
C) Dağlıq ərazilərdə terrasların yaradılması
D) İEOÖ-lərdə aqrotexniki qaydalar və elmi nailiyyətlər sayəsində məhsuldarlığın artırılması
E) Heyvandarlıqda otlaq sahələrinin genişləndirilməsi

34. Azərbaycanda Əhalinin daha sıx məskunlaşdığı rayonlar:




A) 2,3,5 B) 1,3,4 C) 1,2,6
D) 2,4,5 E) 1,4,6

35. Bakıda saat 20:37-dir. Ondan cənub-qərbdə yerləşən, yay gündönümündə gecə və gündüzün bərabər olduğu A məntəqəsində isə saat 14:25-dir. A məntəqəsinin yerləşdiyi saat qurşağını və onun coğrafi koordinatını təyin edin.
A) XXI; 0º e. 43º q.u
B) III; 0º e. 143º ş.u
C) XXI; 23,5º şm.e 43º q.u
D) XXII; 0º e. 43º q.u
E) III; 23,5º şm.e 93º q.u

36. Təbii artımı yüksək olan ölkələri müəyyən edin.




A) 1,3,6 B) 1,4,6 C) 2,3,5
D) 3,4,5 E) 1,2,6

37. Doğru təsviri müəyyən edin və ona aid olan xüsusiyyətləri seçin.




1. atmosferin qapalı alçaq təzyiq sahəsidir
2. şimal yarımkürəsi üçün xarakterikdir
3. küləyin istiqaməti şimal yarımkürəsində saat əqrəbinin hərəkəti üzrədir
4. havanın qalxan hərəkəti nəticəsində buludluluq artır, yağıntı düşür
5. cənub yarımkürəsi üçün xarakterikdir
6. antisiklon təzyiq sahəsidir
A) 2,3,6 B) 1,3,4 C) 1,2,6
D) 2,3,5 E) 1,4,5

38. Mənsəbindən mənbəyinə doğru dəyişən aşağıdakı landşaft tipləri hansı çay hövzəsinə aiddir ?
*- düzənliklərin quru-çöl landşaftı*
*- alçaq dağlığın çöl landşaftı*
*- orta dağlığın meşə landşaftı*
*- yüksək dağlığın çəmən landşaftı*
A) Həkəri B) Lənkəran C) Qusarçay
D) Naxçıvançay E) Türyançay

39. Avrasiyanı Şimali Amerikadan fərqləndirir:
1. Bünövrəsinin bir neçə platformadan ibarət olması
2. Hündürlük qurşağının aydın seçilməsi
3. Qərb küləklərinin təsirinə məruz qalması
4. Şimal yarımkürəsinin bütün iqlim qurşaqlarında yerləşməsi
5. İki yarımkürədə yerləşməsi
6. Ərazisinin 4 okean hövzəsinə ayrılması
A) 1, 4, 6 B) 2, 3, 5 C) 1, 3, 5
D) 3, 4, 6 E) 2, 5, 6

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

40. Uyğunluğu müəyyən edin.




I- Alp qırışıqlığı
II- Kimmeri qırışıqlığı
III- Hertsin qırışıqlığı
A) I-1,5 ; II-4 ; III-2,3,6
B) I-2,5 ; II-1,3 ; III-4,6
C) I-1,2 ; II-3,5 ; III-2,6
D) I-2,5 ; II-1,4 ; III-3,6
E) I-5,6 ; II-1,2 ; III-3,4

41. Müəssisənin illik enerji tələbatını ödəmək üçün 120 000 ton daş kömür lazımdır. Daş kömürü əvəz etmək üçün bu müəssisəyə neçə ton neft lazım olacaq?
A) 60 000 B) 80 000 C) 180 000
D) 105 000 E) 40 000

42. *Antropogen dövrü süxurlarının* üstünlük təşkil etdiyi fiziki-coğrafi rayonlar:




A) 1,4,6 B) 1,3,5 C) 3,4,5
D) 1,2,3 E) 1,2,6

43. Səhm sahibinə şirkətin gəlirindən düşən pay necə adlanır?
A) Faiz B) İstiqraz
C) Dividend D) Nominal dəyər
E) Devalvasiya

44. Dağın ətəyində yerləşən B nöqtəsində atmosfer təzyiqi 755 mm-dir. A nöqtəsindən dənizə axan çayın uzunluğu 75 *km* olarsa, çayın meyilliyini hesablayın.(Nəzərə alın ki, dəniz sahili üçün normal atmosfer təzyiqi xarakterikdir)




A) 1,5 m/km B) 4 m/km
C) 5 m/km D) 7,5 m/km
E) 0,25 m/km

45. Ölkənin yerləşdiyi yarımada və ya paytaxtının düzgün ***verilmədiyi*** sıra:

| | | | |
|---|---|---|---|
| 1. | İsveç | Skandinaviya | Stokholm |
| 2. | Oman | Ərəbistan | Məsqət |
| 3. | İspaniya | Pireney | Madrid |
| 4. | Tailand | Malakka | Pnompen |
| 5. | Vyetnam | Hind-Çin | Hanoy |

A) 4 B) 1 C) 3 D) 5 E) 2

46. İyun-iyul-avqust aylarında ekvatorial, tropik və mülayim hava kütlələrinin hakim olduğu müvafiq ucqar nöqtələr:
1. Ras-Hafun 2. York 3. Piay
4. Roka 5. Sent-Çarlz 6. İynə
A) 3, 5, 6 B) 2, 4, 5 C) 3, 4, 5
D) 1, 2, 4 E) 1, 4, 6

47. Daxili dənizlərə tökülən çaylar:
A) Volqa, Kür, Dnepr
B) Nil, Dunay, Visla
C) Konqo, Oranj, Nil
D) Orinoko, Seneqal, Taxo
E) Parana, Mekonq, Missisipi

48. Böyük Qafqazın şimal – şərq yamacı və Kiçik Qafqazın orta dağlığı üçün ümumi əlamət:
A) filiz faydalı qazıntıların zənginliyi
B) vulkanik mənşəli süxurların geniş yayılması
C) yayı quraq keçən mülayim isti iqlim
D) qışı quraq keçən soyuq iqlim
E) bütün fəsillərdə bol yağıntılı soyuq iqlim

49. Maqmatik mənşəli süxurların verildiyi variantı seçin.
A) çay daşı, vulkan şüşəsi, daş kömür
B) qranit, vulkan tufu, mərmər
C) daş kömür, yanar şist, gips
D) bazalt, pemza, qranit
E) qum, çınqıl, gil

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

50. Qrafikdə gecə və gündüzün uzunluqları verilmişdir. Qrafikdə verilənlər hansı yarımadaya aid ola bilər?




A) Ərəbistan B) Malakka C) Taymır
D) Yukatan E) Florida

51. İstehsala xidmət göstərən sahələr (yük nəqliyyatı, rabitə, qaz təchizatı) necə adlanır?
A) Sosial xidmətlər
B) İnfrastruktur xidmətləri
C) Fərdi xidmətlər
D) İşgüzar xidmətlər
E) Mədəni xidmətlər

52. Lifli bitkilər və onların becərildiyi iqlim şəraiti arasında uyğunluğu müəyyən edin:
A) Pambıq- isti, kətan- mülayim, cut- isti və rütubətli
B) Pambıq- mülayim, kətan- tropik, cut- ekvatorial
C) Pambıq- soyuq, kətan- isti, cut- Aralıq dənizi
D) Bütün lifli bitkilər yalnız mülayim qurşaqda becərilir
E) Sizal- soyuq, pambıq- isti və rütubətli, kətan- mülayim

**Açıq tipli test tapşırıqları:**

53. Yerin xəyali oxunun orbit müstəvisinə meyilliyi 60° olarsa, neçə dərəcə şimal enliyində 1 gün qütb gecəsi və 1 gün qütb gündüzü müşahidə olunar ?

54. Meteoroloji hadisələrlə bağlı verilmiş doğru ifadələri seçin.
1. Burulğan zamanı küləyin qum hissəciklərini havaya uçurması prosesi deflyasiya adlanır
2. Toz burulğanlarına Mərkəzi Afrika, Cənub-Şərqi Asiya və Şərqi Asiyada çox rast gəlinir
3. İsti dövrdə əsən ağ və qara yellər havanın nisbi rütubətini azaldır, ağacları qurudur, torpaq eroziyasına səbəb olur
4. Cənub-Şərqi Asiya üçün səciyyəvi olan tayfunlar güclü leysan yağışları ilə müşayiət olunur
5. Şimali Amerikada toz burulğanları sirokko adlanır
6. Azərbaycanın qərb rayonlarında əsən gilavar küləyi rütubətin kəskin artmasına səbəb olur

55. Hind-Avropa dil ailəsinə aid olan dil qruplarını və müvafiq xalqları müəyyən edin:
1. Slavyan qrupu – ruslar, polyaklar, bolqarlar
2. Türk qrupu – qazaxlar, özbəklər, türkmənlər
3. Roman qrupu – fransızlar, portuqallar, moldovanlar
4. Sami-hami qrupu – ərəblər, yəhudilər, amharlar
5. German qrupu – almanlar, ingilislər, hollandlar
6. İran qrupu – qırğızlar, benqallar, tatarlar

56. Kür çayı üzərində yerləşən su anbarlarını qərbdən şərqə doğru sıralayın.
1. Yenikənd 2. Şəmkir
3. Varvara 4. Mingəçevir

57. Nəqliyyat növləri və onların sərnişin/yük daşımadakı rolu arasında uyğunluğu müəyyən edin:
*1. Avtomobil nəqliyyatı*
*2. Hava nəqliyyatı*
*3. Dəniz nəqliyyatı*
a. Şəhərdaxili və şəhərətrafı sərnişin daşınmasında birincidir
b. Qitələrarası sərnişin daşınmalarında birinci yerdədir c. Yükləri "qapıdan-qapıya" daşımaq xüsusiyyətinə malikdir
d. "Ucuz bayraq" prinsipi ilə Panama və Liberiya bu sahədə liderdir
e. Tez xarab olan və qiymətli yüklərin uzaq məsafəyə daşınmasında rol oynayır

**Situasiya**

**Sizə təqdim olunmuş xəritə-sxemə əsasən 58 – 60 saylı tapşırıqları cavablandırın.**
**Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.**




Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam1

58. Şəkildə təsvir olunmuş iqtisadi-coğrafi rayonu və tərkibinə daxil olan inzibati rayonları müəyyən edib cədvəldə qeyd edin.

| İqtisadi –coğrafi rayon | İnzibati tərkibi |
|---|---|
| | 1.<br>2.<br>3.<br>4.<br>5. |

59. İqtisadi rayon ərazisinin təbii şəraitini cədvəldə qeyd edin.

| Relyef formalarının adı | İqlim yarımtipləri | Landşaft tipləri | Təbiəti mühafizə obyektləri |
|---|---|---|---|
| | | | |

60. Rayonun ixtisaslaşmış təsərrüfat sahələrini qeyd edin.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

## Tarix

61. Neolit və Eneolit dövrləri üçün ümumi cəhəti müəyyən edin:
A) Taxılın metal oraqla biçilməsi
B) Saxsı qabların hazırlanması
C) Süni suvarma sistemindən istifadə
D) Şumlama zamanı qoşqu heyvanlardan istifadə
E) Misdən iynə, biz, balıq tutmaq üçün qarmaq hazırlanması

62. II Xaç yürüşü üçün səciyyəvidir:
1. Mosul hakiminin Eddessanı tutmasına cavab olaraq baş verdi
2. Qüdsdə müsəlman və yəhudi əhaliyə qarşı qətliam törədildi
3. İngilis və Fransız krallarının Qüdsü ələ keçirmək istəyi baş tutmadı
4. Venesiyanın təkidi ilə xaçlı ordusu istiqaməti Konstantinopola doğru dəyişdi
5. 1147-ci ildə başladı
A) 1,3,4 B) 2,4,5 C) 1,3
D) 1,2,4 E) 1,5

63. Eyler – Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a) İqtisadi cəhətdən güclü mərkəzləşmiş dövlətə çevrilmişdi
b) II Bəyazidlə dostluq münasibətləri yaratdı
c) Dövlətin yaranması ilə oğuzların Azərbaycanda və qonşu ərazilərdə siyasi hakimiyyəti yenidən bərqərar oldu
d) Teymuri Əbu Bəkri Sərdrud düzündə məğlub etdi
e) Təbrizi paytaxt seçdi
A) 1-a;2-c;3-b;4-e B) 1-a;2-c,d;3-b;4-e
C) 1-d;2-a;3-b;4-c D) 1-a,c;2-d;3-e;4-b
E) 1-c;2-a;3-d;4-b,e

T.me/BirlikTeam1

64. Paytaxtı ulduz ilə işarələnmiş feodal dövlətin cədvəldəki dövlətlər ilə ümumi cəhətlərini müəyyən edin:




| 1. Salarilər | 2. Sacilər | 3. Şəddadilər |
|---|---|---|
| a. Slavyanlar tərəfindən qarət edildi<br>b. Dərbəndi ələ keçirdi<br>c. Rəvvadilər tərəfindən varlığına son qoyuldu | a. Sülalə nümayəndələri afşin titulu daşıyırdı<br>b. IX əsrdə meydana gəlmişdi<br>c. Samanilər ilə mübarizə apardı | a. Rəvvadi hökmdarı ilə dostluq münasibətləri yaradıldı<br>b. Səlcuq dövlətindən asılı hala düşdü<br>c. Beyləqanı dövlətin ərazisinə birləşdirdi |

A) 1-a;2-b;3- c B) 1-c;2-b;3-a
C) 1-c;2-a,b;3-c D) 1-a,b;2-b;3-b
E) 1-b;2c-;3-a,c

65. II Dünya müharibəsi dövrünə aid hadisələrin xronoloji ardıcıllığını müəyyən edin:
1. Novqorod vilayətinin Pustinka kəndi yaxınlığında döyüş
2. Faşist ordusunun Qafqaz üzərinə hücuma başlaması
3. Stalinqrad döyüşündə Alman ordusunun təslim olması
4. Fransız və Azərbaycanlı partizanların Rodez şəhərini azad etməsi
A) 1,2,3,4 B) 4,3,2,1 C) 2,3,1,4
D) 2,1,3,4 E) 1,3,4,2

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

66. XIX əsrin 30-cu illərində üsyanların baş vermə səbəblərinə uyğun gəlməyən bəndi müəyyən edin:

| | | | |
|---|---|---|---|
| Komendant idarə üsulunun tətbiqi | Məmurların özbaşınalığı | Vergi və mükəlləfiyyələrin artırılması | ? |

A) Köçürmə siyasəti
B) Milli və dini zülm
C) Təhkimçiliyin ləğv edilməsi
D) İltizam sisteminin mövcudluğu
E) Hakim təbəqənin hüquqlarının məhdudlaşdırılması

67. İngiltərədə XIX əsrin ikinci yarısında:
1. İri sənaye şəhərləri parlamentdə təmsil olunmağa başladı
2. Fəhlələrin yuxarı təbəqəsi seçki hüququ qazandı
3. Kanadaya dominion hüququ verildi
4. “Azadolunma haqqında Bəyannamə” imzalandı
5.”Homstedlər” haqqında Qanun qəbul edildi
A) 1,3 B) 2,3 C) 3,4,5
D) 1,4 E) 2,3,4

68. XIX əsrin 20-ci illəri Qarabağ və Lənkəran xanlıqları üçün ümumi cəhətdir:
A) Erməni idarəçiliyi yaradıldı
B) Əyalət şurası fəaliyyətə başladı
C) Gülüstan müqaviləsi ilə Rusiya hakimiyyəti altına düşdü
D) Varlığına son qoyuldu
E) Rusmeyilli qüvvələrdən ibarət müvəqqəti idarə yaradıldı

69. Qubalı Fətəli xanın fəaliyyəti ilə bağlı uyğunluğu müəyyən edin:

| 1. Köçürmə siyasəti | 2. Birləşdirmə siyasəti |
|---|---|
| a. Kəndxudalar topladığı vergini şəxsən xəzinəyə təhvil verməli idi<br>b. Dərbənd xanlığı əhalisinin bir hissəsi Quba xanlığına köçürüldü<br>c. Qarabağ, Şəki xanlıqları və II İraklinin ittifaqına qarşı mübarizə | a. Bakı xanlığı ilə “nikah diplomatiyası”ndan istifadə<br>b. Cəngavər Şahsevən tayfasının xanlığa köçürülməsi<br>c. Gavduşan çölündə məğlubiyyət |

A) 1-c; 2-b B) 1-c; 2-a,b C) 1-b; 2-a,c
D) 1-a; 2-a E) 1-a,b; 2-a

70. 1870-ci il kəndli islahatının tətbiq edilmədiyi bu ərazidə sahibkar kəndliləri 1913-cü ildə torpaq mülkiyyətçisinə çevrildilər:




A) 1 B) 2 C) 3 D) 4 E) 5

71. Azərbaycan Respublikasının XX əsrin sonlarına aid xarici – iqtisadi əlaqələri üçün xarakterikdir:
A) İlham Əliyevin AŞPA-nın vitse prezidenti və büro üzvü seçilməsi
B) TANAP – ın istismara verilməsi
C) ATƏT – in Minsk qrupu həmsədrləri təsisatının yaradılması
D) İpək yolunun bərpası üzrə konfrans keçirilməsi
E) NATO – nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qəbul olunması

72. "44 günlük müharibə" dövrünə ***aid deyil:***
A) Xocalı, Xocavənd, Ağdərə və Əsgəranın terrorçulardan təmizlənməsi
B) Cəbrayıl rayonunun azad edilməsi
C) "Qarabağ mücrüsü" adlı planın tətbiq edilməsi
D) Şuşanın açarı – Hadrutun azad edilməsi
E) "Keçilməz Ohanyan səddi"nin yarılması

73. Ərəb xilafətinin VIII əsr tarixindən fərqli olaraq VII əsr tarixi üçün xarakterikdir:
1. Sasani dövləti ilə müharibələr
2. Yeni sülalənin hakimiyyətə gəlməsi
3. Frankların müqaviməti ilə qarşılaşmaları
4. Xərac adlanan torpaq vergisinin toplanması
5. "Rəşidi xəlifələr" tərəfindən idarə olunması
A) 1,2,3 B) 2,4 C) 1,3,5
D) 1,5 E) 2,4,5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

74. Hadisə və nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Hadisə | Nəticə |
|---|---|---|
| 1 | Böyük Çin səddinin tikilməsi | Hun – Çin müharibələrinin sona çatması |
| 2 | Pinçen döyüşü | Çin ordusu Turan taktikası ilə mühasirəyə alındı |
| 3 | E.ə 36-cı ildə Çin ordularının Qərbi Hun üzərinə hücumu | Böyük Hun dövləti iki hissəyə parçalandı |
| 4 | E.ə IV – III yüzilliklərdə Çinin quldar dövlətləri arasında müharibələr | Çin ərazisi 36 vilayətə bölündü |
| 5 | E.ə III əsrin sonlarında Çin dövlətində sülalə dəyişikliyinin baş verməsi | Xan sülaləsi hakimiyyətə gəldi |

A) 2,5 B) 1,2 C) 3,4
D) 3,5 E) 1,4

75. Pun müharibələrində Roma tərəfindən ələ keçirilən əraziləri müəyyən edin:




A) 1,3,4 B) 2,3,5 C) 1,2,3
D) 3,4,5 E) 1,4,5

76. Xəzər xaqanlığına aid xüsusiyyətləri müəyyən edin:
1. Avropalılardan əvvəl kağız istehsal edib, mətbəə yaratmışdılar
2. IX yüzilliyin 40-cı illərində varlığına son qoyuldu
3. Maniçiliyin qəbul edilməsi xəzərlərin döyüş ruhunu aşağı saldı
4. Dövlətdə ikinci nüfuzlu şəxs xaqanbəyi hesab olunurdu
5. VIII əsrdə musəvilik dövlət dini elan edilmişdi
A) 1,3,4 B) 4,5 C) 2,3,4 D) 1,5 E) 1,3,5

77. *Nəsirəddin şah Qacar bütün İranda tütün almaq, satmaq və emal etmək üçün inigilislərlə müqavilə imzaladı və şirkət bunun müqabilində əldə edəcəyi qazancdan İran hökumətinə ildə cüzi bir məbləğ ödəməyi öhdəsinə götürdü.*
Mətndə bəhs olunan siyasətin nəticələrini müəyyən edin:
1. Tehran əhalisi 1892-ci ildə şah sarayına hücum etdi
2. Zeynəb paşanın rəhbərliyi ilə Təbrizdə çıxışlar başladı
3. Möhtəkirlər ərzaq məhsullarını ucuz qiymətə əhaliyə satmağa məcbur oldular
4. Şah Talbot ilə bağlanmış müqaviləni ləğv etdi
A) 1,3 B) 2,3 C) 3,4 D) 1,4 E) 1,2

78. Monqol imperiyasının XIV əsrin əvvəlləri tarixinə aiddir:
A) İmperiyanın parçalanması
B) Paytaxtın köçürülməsi
C) Yuan sülaləsinin əsasının qoyulması
D) Türkləşmə prosesinin başa çatması
E) İslamın rəsmi dövlət dini elan edilməsi

79. YİS xətti ilə bağlı ardıcıllığı tamamlayın:
*1. Ərzaq sapalağı ərzaq vergisi ilə əvəz edildi*
*2. Kəndlilərin artıq məhsulları bazara çıxarılması asanlaşdı*
*3.......................................................................*
A) Koxozçular pasportlaşmadan məhrum edildi
B) Ticarətin sərbəstləşməsi müştərək müəsisələrin yaradılmasına şərait yaratdı
C) Kollektiv kəndli təsərrüfatları yaradıldı
D) Fərdi kəndli təsərrüfatları ləğv olundu
E) Bütün istehsal sahələri dövlətin əlində mərkəzləşdirildi

80. XIII – XIV əsrlərə uyğun gəlir:
A) Fazil Fəriddin Şirvaninin fəaliyyəti
B) Tərtər çayı üzərində (Bərdə) körpünün tikilməsi
C) Sultaniyyə və Mahmudabad şəhərlərinin salınması
D) Şirvanşahlar saray kompleksinin tikilməsi
E) Təbrizdə Qeysəriyyə bazarının fəaliyyətə başlaması

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

81. Verilən tarixi faktlardan heç birinin aid olmadığı dövləti müəyyən edin:




- Kipri ilhaq etməyə çalışırdı
- 1960-cı ildə ordu hakimiyyəti ələ keçirdi
- 1952-ci ildə NATO-ya daxil oldu
- "Brexit" planı ilə 2020-ci ildə Avropa birliyindən ayrıldı
- II Dünya Müharibəsindən sonra Müvəqqəti rejimin fəaliyyəti sona çatdı, IV Respublika dövrü başladı

A) 1 B) 2 C) 3 D) 4 E) 5

82. Ərəb dövlətlərinin əksəriyyətinin Misirlə siyasi – iqtisadi əlaqələrini kəsməsinə səbəb oldu:
A) 1993-cü il Vaşinqton sazişi
B) Kemp – Devid sazişi
C) "Altıgünlük müharibə"
D) Fələstin Azadlıq Təşkilatının İsrailə qarşı partizan müharibəsinə başlaması
E) 1973-cü ildə ərəb dövlətlərinin itirilmiş əraziləri geri qaytarmaq cəhdi

**Açıq tipli test tapşırıqları:**

83. Hadisə - Nəticə əlaqələrini müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | İskit hökmdarı İşpakayın ölməsi | Ahşeri Mannanı müstəqil elan etdi |
| 2 | Midiyada e.ə 673-cü ildə xalq hərəkatının başlaması | Midiya Assuriya əsarətindən həmişəlik azad oldu |
| 3 | Kiaksarın Babil dövləti ilə ittifaq qurması | Assuriya ordusu məğlub edildi |
| 4 | Astiaqın zərdüşt kahinləri sayılan maqlar ilə yaxınlaşması | Azərbaycanın şimalında müstəqil dövlət yarandı |

84. Bakı XKS-nin həyata keçirdiyi tədbirləri müəyyən edin:
1. Xəzər ticarət donanması gəmiləri sahibkarlara qaytarıldı
2. Neft sənayesi milliləşdirildi
3. Xalq milisi, inqilabi tribunal, xalq məhkəməsi yaradıldı
4. Noyabrın 20-də “ Azərbaycan parlamentinin yaradılması haqqında” Qanun qəbul etdi
5. 1918-ci ilin iyun ayında ərzaq və bəzi xammal məhsullarının xaricə çıxarılmasına müvəqqəti qadağa qoyuldu

85. Şah I Abbasın I Təhmasib ilə oxşar, Şah II Abbasdan fərqli xüsusiyyətləri:
1. Dövlətin paytaxtının köçürülməsi
2. Osmanlı ilə sülh müqaviləsinin imzalanması
3. Osmanlı dövləti ilə sülh və mehriban qonşuluq münasibətlərinin qurulması
4. Rusiya ilə hərbi münaqişə
5. Rəiyyət və sənətkarların dövlət xəzinəsinə olan vergi borclarının ləğv edilməsi

86. *Uzun sürən ara müharibələri və tabe edilən xalqların üsyanları dövləti zəiflətdi. Bu zəiflik Avropa xaçlılarının qarşısını almağa imkan vermədi və Aralıq dənizi sahillərində bəzi ərazilər itirildi. Eyni zamanda qeyri – müsəlman tayfa olan qarakitayların hökmdarı məğlub etməsi müsəlman əhalisi arasında nüfuzunun düşməsinə səbəb oldu.*
Mətndə bəhs edilən dövlət ilə Osmanlı dövləti üçün ümumi cəhətlər:
1. Əmir Teymura məğlub oldu
2. XI – XIII əsrlərdə xaç yürüşlərinə məruz qaldı
3. Bizans ilə mübarizədə qalib gəldi
4. Bağdad ələ keçirildi

87. Uyğunluğu müəyyən edin:
*1. XIX əsrin 50-ci illəri*
*2. XIX əsrin 60-cı illəri*
*3. XIX əsrin 70-ci illəri*
a. Bloklara qoşulmayanlar hərəkatının yaranması
b. Qarşılıqlı iqtisadi yardım şurasının yaradılması
c. SSRİ tərəfindən dünyanın ilk qitələrarası ballisitik raketinin yaradılması
d. ABŞ və SSRİ arasında Strateji silahların məhdudlaşdırılması (SSM-1) müqaviləsinin bağlanması
e. Sovet qoşunlarının Əfqanıstandan çıxarılması

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları cavab vərəqində yerinə yetirin.***

...Müharibə ABŞ-ı ön sıraya çıxartmışdı. Belə bir gələcək müttəfiqlər üçün görünmürdü. Avstriya-Macarıstanın məğlubiyyəti italyanlara imkan verirdi ki, öz planlarını reallaşdırsınlar. Ona görə də, daha vuruşmaq istəmirdilər! İngiltərə də istədiyinə nail olmuşdu. Almaniyanın koloniyalarına yiyələnmişdi. Fransa da müharibənin tez qurtarmasını istəyirdi. Bütün müttfiq dövlətləri Almaniyada inqilab başlanacağından qorxurdular. Çünki, inqilab alovu bütün Avropaya yayıla bilərdi.... Müttəfiqlər arası konfransda Fransa bildirdi ki, o, alman rəqibinin ciddi zəifləməsini, onun ikinci dərəcəli dövlətə çevrilməsini istəyir. ABŞ heç bir vasitəçi olmadan Almaniya və Avstriya-Macarıstanla danışıqlara başlayacağını bildirdi. «Separativ sülh?» - deyə Klemanso soruşduqda ABŞ nümayəndəsi Bəli, - deyə cavab verdi. Klemansonun fikri ilə şərik olan Lloyd Corc müharibəni davam etdirə bilməyəcəklərinə təəssüfləndiyini bildirdi.

88. Tarixi biliklərinizə əsasən bəhs olunan müharibənin hansı iki hərbi-siyasi bloklar arasında baş verdiyini qeyd edin:

89. Tarixi biliklərinizə əsasən bəhs olunan müharibənin başlanması üçün bəhanəni yazın.

90. Fransanın mənbədə bəhs olunmayan məqsədlərini tarixi biliklərinizə əsasən müəyyən edin:

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1